*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2023, № 2* *ISSN: 2663-2926*
*Səhifə: 68-72* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2023.2.68*

# TƏHLİL METODLARI

## Ədəbiyyat nəzəriyyəsində bioqrafik metod

**Simuzər İsmayılova**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: simaismayilova.elm@mail.ru

**Annotasiya.** Məqalədə bioqrafik metod haqqında məlumat verilir, tarixi, təmsilçiləri və prinsipləri araşdırılaraq tədqiq edilir.
Ədəbiyyatşünaslıqda bioqrafik metodun yaradılması XIX əsr fransız tənqidçisi və yazıçısı Şarl Sent-Bövün adı ilə bağlıdır. Onun irəli sürdüyü təhlil metodunda yazıçının tərcümeyi-halının dərindən öyrənilməsinə, bədii əsərin təhlili zamanı yazıçı şəxsiyyəti ilə bədii əsər arasında paralellər aparılmasına üstünlük verilir. Bu janrın köklərinin çox qədimlərə, antik dövrlərə qədər gedib çıxdığı qeyd edilir.
Zaman keçdikcə, bu janrda yazılan əsərlərin yeni formaları yaranmış, müəyyən inkişaf yolu keçərək təkmilləşmişdir.
XX əsrdə fransız yazıçısı Andre Morua bir sıra məşhur yazıçıların bioqrafiyasını sənədlər və faktlar əsasında yazaraq qədim bioqrafiya janrının yeni roman formasını yaratmışdır.
Azərbaycan ədəbiyyatında ilk bioqrafik roman janrının yaradıcısı Əzizə Cəfərzadə hesab edilir.
**Açar sözlər:** bioqrafik metod, janr, Sent-Böv, yazıçı, tənqidçi, bioqrafik roman.

**Məqalə tarixçəsi:** göndərilib – 12.09.2023; qəbul edilib – 25.09.2023

## Biographical method in literary theory

**Simuzar Ismayilova**
Doctor of Philosophy in Philology, associate professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: simaismayilova.elm@mail.ru

**Abstract.** The article provides information about the biographical method, examines its history, representatives and principles.
The development of the biographical method in literary studies is connected with the name of the 19th century French critic and writer Charles Saint-Beauve. In the method of analysis proposed by him, it is preferred to study the writer's biography in depth, to draw parallels between the personality of the writer and the work of art during the analysis of the literary work. It is noted that

the roots of this genre go back to ancient times.
Over time, new forms of works written in this genre have been created and improved by passing a certain path of development.
In the 20th century, the French writer Andre Morois created a new novel form of the ancient biography genre by writing the biographies of a number of famous writers based on documents and facts.
Aziza Jafarzade is considered the creator of the first biographical novel genre in Azerbaijani literature.
**Keywords:** biographical method, genre, Saint-Beauve, writer, critic, biographical novel

**Article history:** received – 12.09.2023; accepted − 25.09.2023

## Giriş / *Introduction*

Ədəbiyyatşünaslıqda bioqrafik metod ədəbiyyatı öyrənməyin ilk elmi üsullarından biridir. Bu metod yazıçının yaradıcılığının şəxsi həyat təcrübəsi fonunda öyrənilməsinə yönəlir. Yazıçının həyatı və şəxsiyyəti onun yaradıcılığını müəyyənləşdirən başlıca amil hesab edilir.

## Əsas hissə / *Main part*

Rus alimi D.Jukov “Bioqrafiyanın bioqrafiyası. Janr haqqında düşüncələr” kitabında bioqrafiya janrı haqqında yazır: “Bioqrafiya – yazıçıları müasir dövrümüzə yaxınlaşdırmaq, onu çağdaş ədəbi mühitimizə daxil etmək, eləcə də onunla bu və ya digər dərəcədə birbaşa dialoq qurmaq cəhdidir. Bioqrafiya yazıçı və onun yaşadığı tarixi dövrlə dialoqdur” [4, s.169].

Dünya ədəbiyyatında bu metodun yaradıcısı fransız tənqidçisi və yazıçısı Şarl Oqüst de Sent-Böv (1804-1869) hesab edilir. Onun ədəbi tənqidçi kimi yaradıcılığı ilk dəfə 1824-cü ildə “Qlob” qəzetində çap etdirdiyi məqaləsi ilə bağlıdır. XIX əsrin 30-cu illərinə qədər bir sıra maraqlı əsərlərin müəllifi olan Sent-Böv ədəbi tənqid sahəsindəki axtarışlarını davam etdirir. Onun fəaliyyətinin keyfiyyətcə yeni dövrü isə həmin əsrin 40-cı illərinə təsadüf edir. Bu illərdə Sent-Böv XVII-XIX əsrlərdə yazıb yaratmış fransız yazıçıları haqqında 3 kitabda çap etdirdiyi “Ədəbi-tənqidi portretlər” (1844-1852), “Bazar ertəsi söhbətləri”, “Port-Royal” və s. əsərlərə daxil etdiyi yazıçıları (Balzak, Viktor Hüqo, Jorj Sand, Aleksandr Düma və s.) adi insanlar kimi təqdim edirdi. Tənqidçi alim Rəhim Əliyev bu kitablara münasibətini belə ifadə edir: “O, (Sent-Böv – S.İ.) “Ədəbi portretlər” və sonrakı əsərlərində yazıçıları adi, canlı adamlar kimi təqdim edir, oxucu təsəvvüründəki romantik yazıçı obrazını aradan götürməyə çalışırdı. O, yazıçıları bütün adamlar kimi müəyyən vərdişlərlə, simpatiya və antipatiyalarla yaşayan adamlar kimi göstərir, onların məişətini belə xırda detallara qədər tədqim edirdi” [1, s.59].

Sent-Böv hesab edirdi ki, məşhur insanların gündəlik vərdişlərinə, həyatına dərindən nüfuz etməklə onu həm yaradıcı, həm canlı insan kimi öyrənə bilər. O deyirdi ki, “Mən hansısa əsərdən zövq ala bilərdim, lakin həmin adamı tanımıramsa, mənim üçün mühakimə yürütmək çətindir; mən belə deyərdim, ağac necədirsə, onun barı da elədir” [5, s.143]. Sent-Böv həm yaradıcılıq prosessini, həm də psixologiyasını gözəl bilirdi və bu mənada müasiri olduğu fransız yazıçılarını araşdıraraq əsərlərinə daxil edirdi.

O, bioqrafik əsərlərində yazıçıların məişət şəraitinə, daxili dünyasında baş verən dəyişikliklərə, təsadüfi görüşlərinə geniş yer verir və inanırdı ki, bütün bunlar yazıçının əsərlərini, ümumilikdə yaradıcılığını öyrənməkdə əsas faktordur.

Afaq Əsədova “Avropa ədəbiyyatşünaslığı və Azərbaycan ədəbi-nəzəri fikri” kitabında Sent-Bövün söylədiyi üç amili onun metodunun qısa proqramı kimi səciyyələndirir: “Ədəbiyyat haqqın-

da elm üç əsas amili nəzərə almaya bilməz: ədəbiyyatın ümumi vəziyyəti, yazıçının gördüyü tərbiyə və təlim, nəhayət təbiət tərəfindən yazıçıya verilmiş xüsusi istedad [2]".

Sent-Böv metoduna əsasən müəllif bioqrafik əsər yazarkən həm yaradıcı şəxsin həyat və yaradıcılığını, həm də onun haqqında olan arxiv materialları, şəxsin tərcümeyi-halı əsasında fikir bildirməlidir. Bəzən müəyyən səbəblərdən bu məlumatları əldə etmək mümkün olmur.

Nəzəriyyəçi alim Qorxmaz Quliyev doğru olaraq bu məsələyə münasibətini belə ifadə edir: "Bir sıra sənətkarlar da mövcuddur ki, onların real tarixi şəxsiyyət olmaları sübuta yetirilsə də, bioqrafiyaları haqqında səhih informasiya əldə etmək qeyri-mümkündür. Bioqrafik metodun məntiqindən çıxış etsək, bu cür sənətkarların yaratdıqları əsərləri öyrənmək imkan xaricindədir" [3, s.17].

Qeyd edək ki, ömrünün son illərinə yaxın Sent-Bövün özü də bunu hiss etmiş və söyləmişdir ki, "mənim üçün dövrümüzün görkəmli müəllifləri haqqında yazmaq demək olar ki, qeyri-mümkün olmuşdur; artıq çoxdan onların əsərləri haqqında yox, şəxsiyyətləri haqqında mühakimə yürüdürəm" [3, s.17].

Sent-Böv qırx ildən artıq bir müddət ərzində yazıçıların həyat hekayələrini böyük zəhmət sərf edərək araşdırmış və tədqiq etmişdir. Bu metoddan bəhrələnərək onu inkişaf etdirən və yeni metod yaradan fransız filosofu və ədəbiyyatşünası İppolit Adolf Ten (1828-1893) olmuşdur. İ.Ten özünü Sent-Bövün şagirdi və davamçısı adlandırırdı. Onun yaratdığı mədəni-tarixi metodun inkişafına bioqrafik metodun böyük təsiri olmuşdur. İ.Ten bioqrafik metodun əsas müddəalarını qəbul edərək, onları yeni bir nəzəriyyəyə çevirmiş, yaradıcılıqda "irq", "mühit" və "məqam" rolunu gücləndirmişdir. O "Təcrübələr", "İngiltərə ədəbiyyatı tarixi", "İncəsənətin fəlsəfəsi" və s. bu kimi əsərlərin yeni elmi metodunu təqdim edirdi.

Sent-Bövün təsiri ilə və eyni zamanda müstəqil olaraq Danimarkalı ədəbiyyatşünas və tənqidçi G.Brandes (1842-1927) ədəbiyyatın öyrənilməsi üçün tarixi-psixoloji metod hazırlayarkən bioqrafik metodun elementlərindən istifadə etmişdir. G.Brandes "Estetikadan etüdlər" (1868), "Tənqidi məqalələr və portretlər" (1870), həmçinin mühazirələrindən ibarət "XIX əsrin Avropa ədəbiyyatında əsas cərəyanlar haqqında" (1871-1891) adlı əsərlərində Sent-Bövdən fərqli olaraq realist istiqaməti əsas götürür və romantizmi kəskin tənqid edirdi.

G.Brandesin əsərləri onu Avropada məşhurlaşdırsa da, Sent-Bövdən fərqli olaraq onun metodu daha çox təsviri səciyyə daşıyırdı. O ədəbi hadisələri təhlildən çox təsvir edirdi. Buna baxmayaraq onun əsərləri Avropa üçün əsas məlumat mənbəyi olur. O, İbsen, Şekspir, Lassal haqqında xeyli əsərlər, rus yazıçıları Turgenev, Dostoyevski, Tolstoy, Qorki haqqında məqalələr yazır. 1910-cu ildə Rusiyada XX cildliyi çap olunur.

Son zamanlarda da dünya ədəbiyyatşünaslığında bir çox tədqiqat əsərlərinin, monoqrafiyaların yazılmasında bu metoddan istifadə olunur.

Nəsrin qədim və aparıcı janrlarından olan bioqrafiya janrının kökləri çox qədimlərə, antik dövr ədəbiyyatına gedib çıxır. İmperatorların, hökmdarların həyat tarixçələri, tərcümeyi-halları əsasında bioqrafik əsərlər yazılırdı. Antik dövrdə ilk qələmə alınmış bioqarfik əsərlərə misal olaraq yunan bioqrafı və filosofu Plutarxın "Müqayisəli tərcümeyi-hallar", Svetoninin "12 Sezarın həyatı" əsərlərini nümunə göstərə bilərik. "Müqayisəli tərcümeyi-hallar" əsərində 50 görkəmli yunan və Roma dövlət xadimlərinin tərcümeyi-halından bəhs edilirdi.

Tənqidçi alim R.Əliyev yazır: "Sonralar bu (bioqrafik janr – S.İ.) dini ədəbiyyata keçərək xristianlıqda müqəddəslərin həyatı janrına çevrilmş və dini prozanın əsas janrı – aqioqrafiya janrı olmuşdur. İncilin dörd fəslinin İsa Məsihin təfərrüatlı bioqrafiyası olduğu məlumdur. Müsəlmanlıqda da "Tarixi-Ənbiya" eyni xarakter daşıylır" [1, s.59].

"Tarixi-Ənbiya" formasında olan əsərlərdə Məhəmməd peyğəmbərin, imamların həyatı və islam tarixi əksini tapmışdır.

Şərq ədəbiyyatında əsrlər boyu ən çox yayılmış əsərlər "Təbəqələr" (ərəbcə Tabaqat) və təzki-

rələr olmuşdur. Təbəqə əsərləri bir növ "Görkəmli adamların həyatı" (Жизнь замечательных людей) silsiləsini xatırladırdı. Bu əsərlərə misal olaraq İbn Sədin demək olar ki, bütün tanınmış insanların həyatını əhatə edən islam dünyasının "Tabaqat" əsərini göstərə bilərik. Ayrıca olaraq, şairlər, filosoflar, övliyalar haqqında da bioqrafik toplular yaranmışdı.

Yuxarıda qeyd etdiyimiz kimi bioqrafik ədəbiyyata misal olaraq təzkirələri də göstərə bilərik. "Təzkirə – şairlərin tərcümeyi-halı və əsərlərindən örnəklər verilən toplumdur. Təzkirələr ilk dəfə olaraq İran ədəbiyyatında meydana gəlmişdir. Təzkirələrdə şairlər haqqında verilən məlumatlar, ya əlifba sırası, ya tarixi xronoloji ardıcıllıq, bəzən də coğrafi prinsip əsasında qurulur. İlk dəfə təzkirə müəllifi Məhəmməd Ovfi (öl.1233) olmuşdur. Onun "Lübabül-Əlbab" ("Ağılların seçilmişi") əsəri XI-XIII yüzilliklərdə yaşayan çoxlu şair və sənətkarlardan bəhs açan dəyərli təzkirə nümunəsidir" [6, s.9-10].

Zaman keçdikcə, bu janrda yazılan əsərlərin yeni formaları yaranmış, müəyyən inkişaf yolu keçərək nəsrin aparıcı janrına çevrilmişdir.

XX əsrdə fransız yazıçısı Andre Morua (1885-1967) tanınmış yazıçıların bioqrafiyasını faktlar və sənədlər əsasında yazaraq qədim bioqrafiya janrının yeni roman formasını yaratmış, janrın hüdud və imkanlarını genişləndirərək daha böyük oxucu auditoriyası qazanmışdır. Onun Şelli, Balzak, Hüqo, Jorj Sand, Düma, Flover, Bayron, Turgenev kimi məşhur yazıçılar haqqında yazdığı bioqrafiyalar faktiki cəhətdən sənədli, təhkiyə cəhətdən isə bədii şəkildə təqdim olunurdu. Bu əsərlər bədii roman kimi oxunaraq dünyaya yayılmışdır.

Azərbaycanda ilk bioqrafik roman janrının yaradıcısı yazıçı və ədəbiyyatşünas Əzizə Cəfərzadə hesab edilir. Onun "Şirvan" trilogiyasına daxil olan, Seyid Əzim Şirvaninin həyatından bəhs edilən "Aləmdə səsim var" (1972), XIII əsr şairi Nişat Şirvani haqqında yazdığı "Vətənə qayıt" (1973), Abbas Səhhətin ömür yolunu əks etdirən "Yad et məni" (1980) və s. əsərləri bu sənətkarların bioqrafiyası haqqında dəqiq və ətraflı məlumat almağa imkan verir.

Əzizə Cəfərzadə Seyid Əzim Şirvani, Abbas Səhhət, Mirzə Ələkbər Sabir, Məhəmməd Füzuli kimi görkəmli söz ustaları ilə yanaşı, müxtəlif elm sahələrini təmsil edən alimlər, səyyahlar haqqında bioqrafik əsərlər yazmaqla onları oxuculara daha yaxından tanıdır.

Son dövrlərdə Anarın "Sizsiz", Rafael Hüseynovun "Cavidlər", Seyran Səxavətin "Qaçaqaç", Vidadi Babanlılnın "Gizlinlər", Sabir Əhmədlinin "Yazılmayan yazı", İlqar Fəhminin "Bakı həyatından kollaj" və s. əsərlər zəngin bioqrafik motivlər əsasında yazılmışdır.

## Nəticə / *Conclusion*

Qeyd edək ki, bioqrafik əsərlər, haqqında bəhs olunan yazıçını tanıyıb dərk etməkdə, mühitin mənzərəsi ilə tanış olub müəyyən nəticəyə gəlməkdə etibarlı və əvəzsiz bir mənbədir.

## Ədəbiyyat / *References*


1. Əliyev, R. Ədəbiyyat nəzəriyyəsi. – Bakı: Mütərcim, – 2008.
2. Əsədova, A. Avropa ədəbiyyatşünaslığı və Azərbaycan ədəbi-nəzəri fikri.
3. Quliyev, Q. XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları. – Bakı, – 2012.
4. Жуков, Д. Биография биографии. Размышленья о жанре. Сов. – Россия, – 1980.
5. Sent-Böv, Ş.O. Литературные портреты. Критические очерки. Перевод с франц., художественная литература. – Москва, – 1970.
6. Səfərli, Ə., Yusifli, X. Qədim və Orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı: Ozan, – 1998.

## Биографический метод в теории литературы

**Симузар Исмаилова**
Доктор философии по филологии, доцент
Институт литературы им. Низами Гянджеви НАНА
E-mail: simaismayilova.elm@mail.ru

**Резюме.** В статье дана информация о биографическом методе, предпринята попытка проанализировать его историю и принципы, дается мнение о специалистах, занимающихся данной темой.
Основоположником биографического метода в литературоведении был французский критик и писатель Шарль Сент-Бев. В предложенном им методе исследования характерно глубоко изучить биографии писателя, проводить параллели между личностью автора и художественным произведением при анализе литературного произведения. Он отмечал, что истоки указанного жанра уходят вглубь веков и связаны с античным периодом.
Понятно, что по прошествии определенного времени возникли и совершенствовались новые формы произведений, написанных в этом жанре, а сам он эволюционировал.
В XX веке французский писатель Андре Моруа написал биографию ряда известных писателей со ссылкой на документы и факты, создав тем самым новую форму романа на основе старого биографического жанра.
В азербайджанской литературе биографический роман впервые был написан прозаиком и литературоведом Азизой Джафарзаде.
**Ключевые слова:** биографический метод, жанр, Сент-Бев, писатель, критик, биографический роман